# Heydər Əliyevin siyasi kursu müstəqil Azərbaycanın dövlətçilik ideologiyasıdır

**Oktyabrın 30-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyevin siyasi kursu müstəqil Azərbaycanın dövlətçilik ideologiyasıdır" mövzusunda tədbir keçirilib.**

***"İki sahil" xəbər verir ki,*** tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Yeni Azərbaycan Partiyasının "91"lər hərəkatının və partiyanın Veteranlar Şurasının üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru Tahir Məmmədov, Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı, ADPU-nun Şamaxı filialının direktoru, dosent Tünzalə Yusifova, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Yeni Azərbaycan Partiyasının "91"lər hərəkatının və partiya Veteranlar Şurasının üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru Tahir Məmmədov "Heydər Əliyevin siyasi kursu müstəqil Azərbaycanın dövlətçilik ideologiyasıdır" mövzusunda geniş məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, xalqımızın bəxtinə, taleyinə düşən böyük şəxsiyyət Heydər Əliyev həm qüdrətli dövlət xadimi, iradəli hakimiyyət ustadı, həm də istedadlı ictimai-siyasi filosof idi.

Sonra Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, ADPU-nun Şamaxı filialının direktoru dosent Tünzalə Yusifova çıxış edərək müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin siyasi kursunun inkişafı sayəsində təşəkkül tapan milli dövlətçilik ideologiyasının ölkəmizə qazandırdığı uğurlardan söhbət açıblar. Bildirilib ki, bu ideologiya öz obyektiv amilləri, qanunauyğunluqları, həyati, elmi, siyasi, fəlsəfi məzmunu ilə sosial mühitdə təzahür edən çoxsaylı obyektiv hadisələrin müsbət həllini təmin etmişdir. Qeyd edilib ki, Azərbaycan tarixinin qırx dörd günlük şanlı Zəfər salnaməsinin yaradıcısı və baş qəhrəmanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ulu Öndərin siyasi-ideoloji, dövlətçilik siyasətini uğurla davam etdirməsi bir daha bütün dünyaya göstərdi ki, Ümummili Lider Heydər Əliyevin uzaqgörən siyasəti yaşayır və ölkəmizi inamla parlaq, aydın gələcəyə aparır.

Sonda mövzu ilə bağlı çoxsaylı suallar cavablandırılıb və xatirə şəkli çəkdirilib.

İki sahil.- 2023- cü il.- 2 noyabr.- №- 201.- S. 5.